# Səfərəli bəy Vəlibəyov pedaqoji fəaliyyətinin əsas xarakterstikası

**Təranə Şəmistan qızı Paşayeva**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
**E-mail:** terane.pashayeva.82@gmail.com

**Rəyçilər:** p.ü.e.d., prof. H.M. Əhmədov,
p.ü.e.d., dos.İ.H. Cəbrayılov

**Açar sözlər:** Səfərəli bəy Vəlibəyov, pedaqogika, seminariya, müəllim
**Ключевые слова:** Сафарали бек Валибеков, педагогика, семинар, педагог
**Key words:** Safarali bey Valibeyov, pedagogy, seminar, teacher

Səfərəli bəy Vəlibəyov Qori Müəllimlər Seminariyasını bitirən ilk üç azərbaycanlı gəncdən biri olub. Ömrünün təxminən 20 ilini pedaqoji işə sərf edib, onlarla istedadlı gənc yetişdirib. Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Süleyman Sani Axundov kimi görkəmli şəxsiyyətlər ibtidai təhsillərini ondan alıblar.

Səfərəli bəy Şeyx Həsən oğlu Vəlibəyov 1861-ci ildə Şuşada dünyaya göz açıb. İlk təhsilini mollaxanada alıb, ərəb və fars dillərini mükəmməl öyrənib. 1875-1879-cu illərdə Şuşa dördsinifli şəhər məktəbində təhsilini davam etdirib. 1879-cu ildə Qori Müəllimlər Seminariyasında Azərbaycan şöbəsi açılır. Azərbaycan şöbəsinin rəhbəri, məşhur maarifpərvər Aleksey Çernyayevski tələbə toplamaq məqsədilə Şuşaya gəlir. Söhbət etdiyi gənclər arasında Səfərəli bəy Vəlibəyov diqqətini daha çox çəkir. Onun hazırlıqlı gənc olduğunu görüb sevinir. Gənc oğlanı seminariyanın ikinci sinfinə qəbul edir (4).

1879-1893-cü illərdə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə rəhbərlik edən A.Çernyayevski qabaqcıl fikirli, geniş dünya görüşlü müəllim kadrların hazırlanmasında böyük əmək sərf edib. Səfərəli bəy Vəlibəyov onun sevimli tələbələrindən idi. O da öz növbəsində müəlliminə bir çox işlərində yaxından köməklik göstərir. Onun "Vətən dili" (I hissə) kitabının ərsəyə gəlməsində yaxından iştirak edir.

Təhsilini (1881-1896) başa vurduqdan sonra müəllim kimi seminariyada qalır. İlk pedaqoji fəaliyyətinə burada başlayır. Eyni zamanda tələbələrin sinifdənkənar məşğələləri ilə məşğul olur. Pedaqoji fəaliyyətini yay tətilində də davam etdirirdi. Tətil zamanı Şuşaya dincəlməyə gələrkən orada uşaqlara pulsuz dərs deyir. Şuşa və ətraf kənd məktəblərində dərs deyən müəllimlərlə yaxından söhbətlər aparır, onları yeni üsul dərs metodikası ilə tanış edir (2, s. 101).

O, seminariya daxilində gedən məfkurə mübarizəsində də fəallıq göstərir. Qafqaz təhsil orqanlarının irticaçı başçıları Azərbaycan dilini seminariyanın tədris proqramından çıxarmağa cəhd edirlər. S. Vəlibəyov müəllim həmkarları A. Çernyayevski, Ə. Axundzadə və N. Lomouri ilə birlikdə bu mürtəce siyasətə qarşı çıxır. O, müasirləri arasında bir çox fərdi keyfiyyətləri ilə diqqət çəkir. Görkəmli maarif xadimi, ustad metodist, bacarıqlı tərcüməçi və hərtərəfli biliyə malik alim kimi tanınır. Onun "Vətən dili" (II hissə, A. Çernyayevski ilə birlikdə) dərsliyi, rus dilindən etdiyi tərcümələr, "Qüdrəti-Xuda", "Üsuli-cədid", tarix, ədəbiyyat, coğrafiya kitabları və "Xəzineyi-əxbar" adlı ensiklopedik səciyyəli əsəri uzun illər azərbaycanlı uşaqların sevdikləri kitablar olub.

Onun maraqlı jurnalistik fəaliyyəti olub. Gənc publisist kimi "Ziyayi-Qafqaziyyə", "Tərcüman", "Kəşkül", "Kafkaz", "Novoye obozreniye", "Kaspi" qəzetlərində çıxış edir. "Türk

dili barəsində", "Qoridən məktub", "Təzə kitabxana və qiraətxana", "Tiflisdən məktub" və digər məqalələrində dövrün mühüm ədəbi və ictimai hadisələrinə münasibət bildirib (1, s. 146).

XIX əsrin 80-ci illərindən başlayaraq qabaqcıl ziyalıların ana dili məktəbi yaratmaq cəhdləri get-gedə artır. Bakı, Naxçıvan, Şəki, Şamaxı və digər şəhərlərdə ayrı-ayrı şəxslər, mütərəqqi maarifçilər ibtidai təhsil verən ana dili məktəbləri açmaqda davam edirdilər. Belə məktəblərdən biri 1883-cü ildə Şuşada Səfərəli bəy Vəlibəyov tərəfindən açılır. Onun məktəbində müxtəlif təbəqələrdən olan 25 şagird oxuyub.

O dövrdə Azərbaycan dilinin tədrisinə dair müxtəlif adda xeyli kitab tərtib edilib. Azərbaycan dilində tərtib edilən oxu kitabları içərisində Səfərəli bəy Vəlibəyovun (1888) Tiflisdə "Kəşkül" qəzetinin mətbəəsində çap etdirdiyi risalə xüsusi əhəmiyyət kəsb edir. Araşdırmalarda göstərilir ki, kitabın titul səhifəsində rus dilində bu sözlər yazılıb: «Книга для самостоятельного чтения на татарско-азербайджанском языке». Azərbaycan dilində isə kitabça belə adlanır: "İbtidai məktəb şagirdlərinə məxsus və hüsnü əxlaqa dair Azərbaycan dilində oxu risaləsi". Risaləyə "Qüdrəti-Xuda" ("Allahın qüdrəti") sözləri epiqraf seçilib. Kitab Sankt-Peterburq şəhərindəki S.Şedrin adına Dövlət Kütləvi Kitabxanasının "SSRİ xalqlarının ədəbiyyatı" şöbəsində saxlanılır.

Səfərəli bəy Vəlibəyovun elmi-pedaqoji fəaliyyətində məşhur tatar maarifçisi İsmayıl bəy Qasprinski ilə görüşü böyük rol oynayıb. XIX əsrin 90-cı illərində o, Firidun bəy Köçərli ilə İsmayıl bəyin yaşadığı Baxçasaraya gedir. Görüş onda böyük təəssürat yaradır. Bir müddət sonra bu görüş barədə Firidun bəy Köçərli yazırdı: "1890-cı ildə həqir müsəlman şöbəsinin nəzdindəki ibtidai məktəbin sabiq müəllimi Səfərəli bəy Vəlibəyovla möhtərəm ustadımızı ziyarət etmək məqsədilə Baxçasaraya səfərə çıxdıq. On gündən çox İsmayıl bəy öz evində bizi qonaq saxladı. Möhtərəm həyat yoldaşı ilə bizlərə çox-çox yaxşılıqlar etdilər ki, heç vaxt o nəvazişlər unudulmaz".(6)

Səfərəli bəy Vəlibəyov 1896-cı ildə Qoridən Bakıya köçür. Burada bir müddət pedaqoji fəaliyyətlə məşğul olur. Sonra Bakı gömrükxanasında işə düzəlir, tərcüməçi vəzifəsində çalışır. 1902-ci il avqustun 31-də ömrünün coşqun çağında ürək xəstəliyindən vəfat edir.

**Məqalənin aktuallığı.** Səfərəli bəy Vəlibəyov XIX əsr Azərbaycan pedaqoji tarixinin simalarından biridir. Pedaqogika elmi, xüsusilə tarixçiliyi və poetika əsasən orta əsrlərin təzkirəçilik ənənələri üzərində davam etdirdiyindən tədqiqat mövzusu olduqca aktualdır.

**Məqalənin elmi yeniliyi.** Tədqiqatın elmi əhəmiyyəti ondadır ki, pedaqoji nəzəriyyə tarixinin əsas nümayəndələrindən olan Səfərəli bəy Vəlibəyovun pedaqoji fəaliyyəti kompleks və müfəssəl şəkildə araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın praktiki əhəmiyyəti pedaqoji nəzəriyyə tarixinin tədqiqində əhəmiyyətli yer alması ilə səciyyələnir. Bu, qloballaşmaqda olan təhsilin inkaredilməz şərtidir.

## Ədəbiyyat

1. Bağırov Ə. Görkəmli maarif xadimi Səfərəli Vəlibəyov // Azərbaycan məktəbi, 1962, № 7, с. 38.

2. Qasımzadə F.S.. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Azərbaycan Dövlət Universiteti Nəşriyyatı, 1956, 560 s.

3. Əhmədov H. M. Azərbaycan məktəbi. Bakı: Maarif, 2006, 366 s.

4. Rzali R. Fədakar maarifçi. Qori Seminariyası-130 Azərbaycan filialı: Aleksey Osipoviç Çernyaevski haqqında. "Azərbaycan" qəz., 2009, 11 iyul.

5. Карадаги, Гасанали Хан. Произведения. Баку: Шуша, 2004, 168 с.

6. Худиев, Н., Гаджиев. Т. История Азербайджанского литературного языка. Баку: Мaариф, 1995, 496 с.
7. Гасанов Р.Й. Из истории литературных связей. Баку: Издательство БГУ,1991, 74 с.

**T.Ş. Пашаева**

## Основные характеристики педагогической деятельности Сафарали бека Валибекова

### Резюме

После окончания Горийской учительской семинарии в 1881 году Сафарали-бей начал здесь свою карьеру учителя и проработал в семинарии до 1896 года. Он был одним из первых трех молодых азербайджанцев, окончивших Горийскую учительскую семинарию. Около 20 лет своей жизни он провел в педагогической работе, вырастив десятки талантливых молодых людей. Когда он приехал в Шушу отдыхать на каникулах, он давал детям бесплатные уроки и готовил их к среднему и высшему образованию. С 1980-х годов усиливаются усилия ведущих интеллектуалов по созданию школы родного языка. Одна из таких школ была открыта в 1883 году в Шуше Сафарали-беком. В его школе было 25 учеников из разных слоев общества. Сафарали-бей переехал из Гори в Баку в 1896 году. Он преподавал здесь два года. У него начальное образование получили такие выдающиеся личности, как Джалил Мамедгулузаде, Нариман Нариманов, Сулейман Сани Ахундов.Сафарали бей был известен не только как хороший педагог среди своих современников. Он также был известен как выдающийся педагог, опытный методист, опытный переводчик и ученый с обширными познаниями.

**T.Ş. Pashayeva**

## The main characteristics of the pedagogical activity of Safarali bey Valibayov

### Summary

After graduating from the Gori Teachers' Seminary in 1881, Safarali Bey began his career here as a teacher and worked at the seminary until 1896. He was one of the first three young Azerbaijanis to graduate from the Gori Teachers' Seminary. He spent about 20 years of his life in pedagogical work, raising dozens of talented young people. When he came to Shusha to rest during the holidays, he taught free lessons to children and prepared them for secondary and higher education. Since the 1980s, the efforts of leading intellectuals to establish a school of the mother tongue have been growing. One of such schools was opened in 1883 in Shusha by Safarali bey. His school had 25 students from different walks of life. Safarali Bey moved from Gori to Baku in 1896. He taught here for two years. Prominent personalities such as Jalil Mammadguluzadeh, Nariman Narimanov, Suleyman Sani Akhundov received their primary education from him. Safarali Bey was not only known as a good teacher among his contemporaries. He was also known as an outstanding educator, a master methodologist, a skilled translator, and a scholar with extensive knowledge.

**Redaksiyaya daxil olub:** 03.12.2021